1.
Aşağıdakılardan hansında meyar müəyyən edilmişdir?
A) 10 suala doğru cavab verənlər sertifikat alacaq.
B) 20 dəqiqədən sonra suyun hərarəti 90°-yə yüksəldi.
C) Bakı ilə Şuşa arasında məsafə 404 km-dir.
D) Müraciət edənlərin hamısının diplom balı 3,5-dən yuxarıdır.
E) 3 il əmək stajı olan müəllimlər bütün müəllimlərin 8%-ni təşkil edir.

2.
Hansı summativ qiymətləndirmənin xüsusiyyətlərindəndir?
A) Şagirdlərin nailiyyət səviyyəsi müəyyən olunur.
B) İstifadə olunan tapşırıqlar şagirdlərə qiymət vermək üçün nəzərdə tutulmur.
C) Təhsil proqramının məqsədlərinin tutarlı olub-olmadığını yoxlayır.
D) Təlim prosesindəki çatışmazlıqları aşkara çıxarmaq üçün keçirilir.
E) Təhsil prosesinin əvvəlində həyata keçirilir.

3.
Hansı biri qiymətləndirmə nəticəsini ifadə edir?
A) Jüri rəyinə əsasən Nicatın layihəsi TEKNOFEST-in final mərhələsinə yüksəldi.
B) Tibbi müayinədən keçən Musanın boyunun 165 sm olduğu müəyyən edildi.
C) Növbəti imtahanda minimum müsabiqə balının 75 olacağı elan edildi.
D) Cavanşir 10 nəfərin iştirak etdiyi 100 m məsafəyə qaçış yarışına 7 nömrə altında qatıldı.
E) Namizədlərə hər doğru cavaba görə 2 bal veriləcəyi elan edildi.

4.
Müəllimin fasilitator kimi rolunu özündə əks etdirir:
A) Şagirdin potensialını üzə çıxarmağa çalışmaq
B) Bilikləri hazır şəkildə şagirdə ötürməyə çalışmaq
C) Şagirdin problemə dair fikirlərinə heç bir halda düzəliş etməmək
D) Müzakirə mühitini məhdudlaşdırmaq, səhvləri haqqında şagirdə məlumat verməmək
E) Təlim prosesində müəllimin şagirddən daim ön planda olmasına təmin etmək

5.
Hansı fəal təlim üsulu deyil?
A) Ev tapşırığı
B) Ziqzaq
C) Konkret hadisənin tədqiqi
D) Beyin həmləsi
E) Prezentasiyalar

6. Verilən sözlər cütünə analoji əlaqəli olan natamam cütü tamamlayın.
qələbə – məğlubiyyət; mükafat – ?
A) cəza
B) təşəkkür
C) bəyənmə
D) qiymətləndirmə
E) razılıq

7. Samirə, Aynurə və Aytən Nisənin ad gününə gedirdilər. İkisi tort, biri isə konfet almışdı. Samirə və Aynurə fərqli hədiyyələr almışdı. Aytən və Samirənin aldıqları hədiyyələr də fərqli idi. Ad gününə kimin nə aldığını müəyyən edin.
A) Aynurə və Aytən - tort, Samirə - konfet
B) Aynurə və Samirə - tort, Aytən - konfet
C) Samirə və Aytən - tort, Aynurə - konfet
D) Samirə - tort, Aynurə və Aytən - konfet
E) Aytən - tort, Aynurə və Samirə - konfet

8. Verilənlər arasındakı məntiqi əlaqəyə əsasən fərqli olanı müəyyən edin.
A) dəsmal
B) şalvar
C) palto
D) köynək
E) pencək

9. Hansı variantdakı sırası pozulmuş hərflərin bərpa olunmuş vəziyyəti birinci sözün sonu, ikinci sözün əvvəlidir?
ha ( ? ) ır
A) mma
B) ədm
C) arm
D) fdə
E) sək

10. Cümləni düzgün tamamlayan cavabı seçin.
Pasifizmin əksi … .
A) militarizmdir
B) materializmdir
C) eqoizmdir
D) idealizmdir
E) bürokratizmdir